**Azərbaycan Respublikasında qidalanmanı yaxşılaşdırılması, əhalinin insan orqanizmində çatışmayan mikroelement və vitaminlərlə zənginləşdirilmiş yeyinti məhsulları ilə təmin edilməsi, bu sahədə icra hakimiyyəti orqanları, beynəlxalq təşkilatlar və ərzaq məhsulları istehsalçılarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə aşağıdakı tərkibdə Qidalanmanın Yaxşılaşdırılması üzrə Komissiya yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikasında qidalanmanı yaxşılaşdırılması, əhalinin insan orqanizmində çatışmayan mikroelement və vitaminlərlə zənginləşdirilmiş yeyinti məhsulları ilə təmin edilməsi, bu sahədə icra hakimiyyəti orqanları, beynəlxalq təşkilatlar və ərzaq məhsulları istehsalçılarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə aşağıdakı tərkibdə Qidalanmanın Yaxşılaşdırılması üzrə Komissiya yaradılsın:

Elçin **Əfəndiyev** - Azərbaycan Respublikası Baş nazirinin müavini, Komissiyanın sədri

**Komissiyanın üzvləri:**

Əli **İnsanov** - Azərbaycan Respublikasının səhiyyə naziri

İsmət **Abbasov** - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Hüseynqulu **Bağırov** - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Samir **Şərifov**[1] - Azərbaycan Respublikasının maliyyə naziri

Heydər **Babayev**[2] - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Əbülfəz **Qarayev** - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri

Fazil **Məmmədov** - Azərbaycan Respublikasının vergilər naziri

Misir **Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

Əli **Nağıyev** - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Hadı **Rəcəbli** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı,

Sosial siyasət daimi komissiyasının sədri
(razılaşdırılıb)

Xalidə **Məsimova** - Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin
Baş
direktoru

Abbas **Vəlibəyov** - Azərbaycan Respublikasının baş dövlət sanitar həkimi, Azərbaycan Respublikası səhiyyə
nazirinin
müavini

İzzət **Şamxalova** - Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Mamalıq - Ginekologiya Elmi-Tədqiqat İnstitutunun direktoru

Mauhev **Vestfall** - Asiya İnkişaf Bankının Azərbaycandakı daimi nümayəndəsi (razılaşdırılıb)

Hanna **Singer** - YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri (razılaşdırılıb)

Fərman **Abdullayev** - Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri (razılaşdırılıb)

Vüsalə **Allahverdiyeva** - YAYF 9005 << Aztəminatlı qadınların və uşaqların qidalanmasının yaxşılaşdırılması
>> layihəsinin ölkə
üzrə koordinatoru

Qalina **Qəniyeva** - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin mikronutriyent çatışmazlığı üzrə milli
koordinatoru

Kamilla **Dadaşova** - << Simmetriya >> Azərbaycan Gender Assosiasiyasının prezidenti

Səadət **Mahmudova** - << Tofiq İsmayılov adına Fond>>un vitse
prezidenti

Aybəniz **Məmmədova** - <<Sağlam gələcək >> ictimai birliyinin direktoru

Hümmət **Kərimov** - <<Kristal Co >> duz istehsalı müəssisəsinin
direktoru

Asabil **Qasımov** - << Karat >> un istehsalı müəssisəsinin direktoru

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə tapşırılsın ki, iki ay müddətində Qidalanmanın Yaxşılaşdırılması üzrə Komissiya haqqında Əsasnaməni hazırlayıb əlaqədar təşkilatlarla razılaşdıraraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri, A. Rasizadə**

Bakı şəhəri 18 iyun 2005-ci il
№ 147 S

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 28 noyabr 2005-ci il tarixli 219 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 11, maddə 1075**)
2. 18 may 2006-cı il tarixli 126 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 469**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 18 may 2006-cı il tarixli 126 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 469**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 147 s nömrəli sərəncamının 1-ci bəndinin yeddinci abzasında "Əvəz Ələkbərov" sözləri "Samir Şərifov" sözləri ilə əvəz edilmişdir.

[2] 28 noyabr 2005-ci il tarixli 219 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 11, maddə 1075**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 147s nömrəli sərəncam 1-ci bəndinin səkkizinci abzasında "Fərhad Əliyev" sözləri "Heydər Babayev" sözləri ilə əvəz edilmişdir.